## MÜKAFATLARI

1. 1970-ci ildə "Rəşadətli əməyə görə" medalına layiq görülüb.
2. 2010-cu ildə "Şöhrət" ordeni ilə təltif edilib.
3. 2015-ci ildə Əməkdar elmi xadimi adına layiq görülüb.
4. 2018-ci il may ayının 18-də İCOM Azərbaycan Milli Komitəsi tərəfindən Akademik Nailə Vəlixanlı komitənin fəaliyyətində göstərdiyi xidmətlərə görə "Fəxri üzv" nominasiyası üzrə diplomla təltif olunub.
5. AMEA Rəyasət Heyətinin 2018-ci il aprelin 5-də keçirilmiş iclasında 6 alimin adlı mükafatlarla təltif olunması haqqında qərar qəbul edilmişdir. 2018-ci il noyabr ayının 25-də Azərbaycanın və Yaxın Şərqin erkən orta əsrlər tarixinin mənbəşünaslıq, regionun sosial-iqtisadi, siyasi-mədəni problemlərinin və tarixi coğrafiyasının tədqiqi, təhlili və təbliğinə görə Akademik Nailə Vəlixanlı AMEA-nın Abbasqulu ağa Bakıxanov adına mükafatına layiq görülüb.
6. 2019-cu il tarixli 065 №-li əmri ilə AMEA Milli Azərbaycan Tarixi Muzeyinin direktoru, akademik Nailə Vəlixanlı Azərbaycan Respublikası DTX-nin sədri, general-polkovnik Mədət Quliyevin imzası ilə verilən vəsiqədə akademik Nailə Vəlixanlının "Azərbaycan Respublikası dövlət təhlükəsizliyi və xarici kəşfiyyat orqanlarının 100 illiyi (1919–2019)" Azərbaycan Respublikasının yubiley medalı ilə təltif edilib.
7. Milli Azərbaycan Tarixi Muzeyinin direktoru, akademik Nailə Vəlixanlı 2019-cu il sentyabr ayının 23-ü Türkiyənin Ankara şəhərində fəaliyyət göstərən Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının həqiqi üzvü (akademik) seçilib və beynəlxalq "Qızıl Ulduz" medalı ilə təltif edilib.
8. Azərbaycan Respublikası Təhsil nazirinin 6 dekabr 2019-cu il tarixli K-1825 nömrəli əmri ilə "Bakı Dövlət Universitetinin 100 illiyi (1919–2019)" Azərbaycan Respublikasının yubiley medalı ilə təltif edilib.
9. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2019-cu il 27 may tarixli 1205 nömrəli Sərəncamına əsasən AMEA Milli Azərbaycan Tarixi Muzeyinin direktoru, akademik Nailə Vəlixanlı "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918–2018)" yubiley medalı ilə təltif olunub. Yubiley medalı və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzası ilə verilən yubiley medalının vəsiqəsi (№ I-828) AMEA Rəyasət Heyətinin 17.07.2019-cu il tarixli iclasında akademik Nailə Vəlixanlıya təqdim edilib.
10. 2019-cu il oktyabr ayının 17-də Akademik Nailə Vəlixanlı ICOM Azərbaycan Milli Komitəsinin Rəyasət heyətinə üzv seçilib.
11. MDB-ə Üzv Dövlətlərin Humanitar Əməkdaşlıq üzrə Dövlətlərarası Fondunun Mükafatlandırma Şurası tərəfindən Milli Azərbaycan Tarixi Muzeyinin direktoru, akademik Nailə Vəlixanlı 2019-cu il üçün "Birliyin Ulduzları" Dövlətlərarası Mükafatının laureatı adına layiq görülüb. MDB ölkələri tərəfindən Nailə xanımın yaradıcı əməyinə və humanitar sahədəki uğurlarına verilən yüksək qiymətləndirmədən xəbər verir. "Birliyin Ulduzları" Dövlətlərarası Mükafatı diplomdan, Mükafat laureatının fəxri nişanından və ona verilən sertifikatdan ibarətdir.
12. 30 dekabr 2020-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən Azərbaycan Respublikasında elmin inkişafında böyük xidmətlərinə görə "Şərəf" ordeni ilə təltif edilib.

13. Azərbaycan Respublıkasının Prezidenti İlham Əliyevin Azərbaycan Respublıkasında 2021-ci ilin "Nizami Gəncəvi ili" elan edilməsi haqqında 5 yanvar 2021-ci il tarixli Sərəncamı ilə əlaqədar dahi şair və mütəfəkkir Nizami Gəncəvi irsinin tədqiqi və təbliği sahəsində elmi fəaliyyətinə görə Milli Azərbaycan Tarixi Muzeyinin baş direktoru, akademik Nailə Vəlixanlı Azərbaycan Milli Elmlər Akademiyasının Fəxri Fərmanı ilə təltif olunub.
14. Azərbaycan Prezidenti İlham Əliyevin 2 fevral 2024-cü il tarixli Sərəncamı ilə "Heydər Əliyevin 100 illiyi (1923–2023)" yubiley medalı ilə təltif edilmişdir.